Avropa İnsan Hüquqları Məhkəməsi

# AİHM 50 SUALDA



EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

AZE

# AİHM
# 50 SUALDA

Bu sənəd Məhkəmənin İctimai Əlaqələr Şöbəsi tərəfindən hazırlanmışdır və Məhkəmənin üzərinə heç bir öhdəlik qoymur. Sənəd Məhkəmənin işi barədə ümumi məlumat verir.
Daha ətraflı məlumat üçün Katiblik tərəfindən hazırlanan, Məhkəmənin rəsmi internet səhifəsində www.echr.coe.int yer alan sənədlərə istinad edə bilərsiniz.

© European Court of Human Rights, 2021

European Court of Human Rights
Council of Europe
67075 Strasbourg cedex
France

# Avropa İnsan Hüquqları Konvensiyası

## 1 Konvensiya nə vaxt qəbul edilmişdir?

Daha çox "Avropa İnsan Hüquqları Konvensiyası" kimi tanınan İnsan Hüquqları və Əsas Azadlıqların Qorunması barədə Konvensiya 4 noyabr 1950-ci ildə Romada imzalanmış, 3 sentyabr 1953-cü ildə qüvvəyə minmişdir. Konvensiya İnsan Hüquqları haqqında Ümumi Bəyannamədə qəbul edilmiş əsas hüquq və azadlıqları təsbit etmiş və üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyən dövlətlər barəsində qətnamələr çıxarmaq səlahiyyətinə malik olan beynəlxalq məhkəmə orqanı təsis etmişdir.

## 2 Konvensiyanın protokolu nədir?

Konvensiyanın protokolu Konvensiyanın ilk mətninə bir və ya bir neçə hüquq əlavə edən və ya onun müəyyən müddəalarına düzəlişlər edən sənəddir.

Konvensiyanın siyahısına əlavə hüquqlar daxil edən protokollar yalnız onu imzalayan və ratifikasiya edən Dövlətlərin üzərinə öhdəlik qoyur. Protokolu ratifikasiya etmədən imzalayan Dövlət onun müddəalarının yerinə yetirilməsi üzrə öhdəlik daşımır.

Bu günə qədər 14 əlavə protokol qəbul olunmuşdur.

## 3 Konvensiya ilə hansı hüquqlar qorunur?

Konvensiyanı ratifikasiya edən dövlətlər, onları "İştirakçı Dövlətlər" də adlandırırlar, öz vətəndaşlarının, həmçinin onların yurisdiksiyasına daxil olan istənilən şəxsin əsas mülki və siyasi hüquqlarını müdafiə və təmin etməyi öhdələrinə götürmüşlər.

Konvensiya tərəfindən qorunan hüquq və azadlıqlara yaşamaq hüququ, ədalətli mühakimə olunmaq hüququ, şəxsi və ailə həyatına hörmət hüququ, ifadə azadlığı, fikir, vicdan və din azadlığı və şəxsi mülkiyyətin qorunması daxildir. Konvensiya, xüsusilə işgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanı, məcburi əməyi, əsassız və qanunsuz həbsi və Konvensiyada təsbit olunmuş hüquq və azadlıqların istifadəsində ayrı-seçkiliyi qadağan edir.

## 4 Konvensiya təkmilləşdirilirmi?

Bəli. Konvensiya əsas etibarilə onun müddəalarının Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən təfsir edilməsi sayəsində təkmilləşdirilir. Məhkəmə təcrübəsi Konvensiyanı dinamik bir mexanizmə çevirmişdir, belə ki, Məhkəmə Konvensiya tərəfindən təmin edilən hüquqları genişləndirmiş və onların Konvensiyanın ilkin qəbulu zamanı nəzərdə tutulmayan hallarda tətbiqini təmin etmişdir.

Konvensiya eyni zamanda buraya yeni hüquqlar əlavə edən protokollar vasitəsilə də, məsələn, 2003-cü ilin iyulunda istənilən şəraitdə ölüm cəzasının ləğvini nəzərdə tutan 13 №li Protokolun və ya 2005-ci ilin aprelində ayrı-seçkiliyin qadağan olunması haqqında 12 №li Protokolun qüvvəyə mindiyi hallarda olduğu kimi, təkmilləşdirilir.

## 5 Konvensiyanın milli məhkəmə orqanları tərəfindən tətbiqi məcburidirmi?

Konvensiya milli səviyyədə tətbiq oluna bilər. Onun müddəaları Konvensiyada

müəyyən edilmiş hüquqların qorunmasını öhdəsinə götürən İştirakçı Dövlətlərin qanunvericiliyinə daxil edilmişdir. Ona görə də milli məhkəmə orqanları Konvensiyanın müddəalarını tətbiq etməlidirlər. Əks təqdirdə, hüquqlarının müdafiəsi ilə əlaqədar fərdlərin şikayətləri olduqda Avropa İnsan Hüquqları Məhkəməsi həmin dövlətin əleyhinə qərar qəbul edə bilər.

## Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM)

### 6 Məhkəmənin tərkibi necədir?

Məhkəmədə olan hakimlərin sayı İştirakçı Dövlətlərin sayı ilə eynidir.

### 7 Məhkəmənin hakimləri necə seçilir?

Hakimlər Avropa Şurası Parlament Assambleyası tərəfindən hər Dövlət tərəfindən təklif olunan üç namizədin arasından seçilir. Onlar doqquz il müddətinə təkrar seçilməmək şərtilə seçilirlər.

### 8 Hakimlər doğrudan da müstəqildirlərmi?

Hakimlər Dövlət adından seçilmələrinə baxmayaraq, məhkəmələrdə müstəqil şəkildə fəaliyyət göstərirlər və Dövləti təmsil etmirlər. Hakimlər tamamilə müstəqildirlər və onların müstəqilliyi və bitərəfliyi ilə bir araya sığmayan heç bir fəaliyyətlə məşğul ola bilməzlər.

### 9 Hakimlər öz ölkələri ilə bağlı işlərdə iştirak edirlərmi?

“Milli hakimlər” tək-hakim prosedurunda iştirak edə bilməzlər. İstisna hallarda, onlar Komitədə iştirak etməyə dəvət oluna bilərlər. Buna baxmayaraq, işə yeddi-hakimdən ibarət Palata və ya on yeddi hakimdən ibarət Böyük Palata baxırsa, Məhkəmənin tərkibinə həmişə “milli hakim” daxil edilir.

### 10 Katiblik nədir və o necə işləyir?

Katiblik məhkəmə işləri zamanı Məhkəməyə hüquqi və inzibati dəstək verən qurumdur. Bu qurum hüquqşünaslardan, inzibati və texniki işçilərdən və tərüməçilərdən təşkil olunmuşdur.

### 11 Məhkəmənin büdcəsi nə qədərdir?

Məhkəmənin xərcləri Avropa Şurası tərəfindən ödənilir. Məhkəmənin büdcəsi Avropa Şurasına üzv dövlətlərin ödədiyi üzvlük haqlarının hesabına maliyyələşdirilən Avropa Şurasının büdcəsinin bir hissəsini təşkil edir. Üzvlük haqqının miqdarı əhalinin sayına və ÜDM-nin dərəcəsinə əsaslanan şkala üzrə müəyyən edilir.

Məhkəmənin büdcəsi hakimlərin və işçilərin maaşlarını və müxtəlif əlavə xərcləri (İT, rəsmi səfər, tərcümə, şifahi tərcümə, nəşrlər, nümayəndəlik xərcləri, hüquqi yardım, fakt araşdırma missiyaları və s.) əhatə edir.

### 12 İşlərin baxılması zamanı Məhkəmənin tərkibi dəyişə bilərmi?

Bəli, məhkəmə işlərə dörd əsas tərkibdən birində baxa bilər.

Açıq-aşkar qəbuledilməz hesab olunan şikayətlər tək hakim tərəfindən baxılır. Üç hakimdən ibarət Komitə Məhkəmənin artıq formalaşmış presedent hüququnun təşəkkül tapdığı işlərin qəbuledilənliyi və mahiyyəti üzrə yekdil səslə qərar qəbul edə bilər. Şikayət əsasən işin qəbuledilənliyi və mahiyyəti üzrə səs çoxluğu ilə qərar qəbul edən yeddi hakimdən ibarət Palataya da göndərilə bilər.

Müstəsna hallarda, 17 hakimdən ibarət Böyük Palata bir Palatanın onun lehinə yurisdiksiyasından imtina etdiyi təqdirdə və ya Böyük Palataya göndərilməsi tələbi qəbul edilən işlərə baxır.

### 13 Palata və Bölmə arasındakı fərq nədən ibarətdir?

Bölmə inzibati vahiddir, Palata isə Məhkəmənin müəyyən Bölməsinin tərkibində olan məhkəmə kollegiyasıdır.

Məhkəmə beş Bölmədən ibarətdir ki, bu Bölmələrin nəzdində Palatalar yaradılır. Hər bir Bölmə onun Sədrindən, Sədr Müavinindən və bir neçə hakimdən ibarətdir.

### 14 Palatalar və Böyük Palatalar necə yaranır?

Palatanın tərkibinə işi icraata götürən Bölmə Sədri, “milli hakim” (əleyhinə şikayət göndərilmiş Dövlətdən seçilən hakim) və Bölmə Sədri tərəfindən rotasiya qaydasında təyin olunan beş hakim daxildir.

Böyük Palata Məhkəmənin Sədrindən və Sədr Müavinlərindən, Bölmə Sədrlərindən, milli hakimdən və püşkatma yolu ilə seçilən digər hakimlərdən təşkil olunmuşdur. Böyük Palataya göndərilən işin baxılması zamanı iş üzrə birinci məhkəmə qərarını çıxaran Palatanın hakimlərindən heç biri Böyük Palatada iştirak edə bilməz.

### 15 İşə nə zaman Böyük Palata baxır?

Böyük Palatada baxılmazdan əvvəl işlərə iki formada münasibət bildirilir: göndəriş və ya imtina.

Palatanın qətnaməsi çıxdıqdan sonra tərəflər işin Böyük Palataya göndərilməsini xahiş edə bilərlər və belə xahişlər müstəsna hallarda qəbul olunur. Böyük Palatanın hakimlər kollegiyası işin yenidən baxılması üçün Böyük Palataya göndərilməli olub-olmaması barədə qərar qəbul edir.

Palatalardan biri iş üzrə yurisdiksiyasından imtina etdikdə də iş Böyük Palataya göndərilə bilər ki, bu da müstəsna hal sayılır. Əgər Palatanın icraatında olan iş Konvensiyanın təfsirinə dair ciddi məsələ qaldırarsa, yaxud məsələnin həlli Məhkəmənin əvvəllər çıxardığı qətnamə ilə ziddiyyət təşkil etmə təhlükəsi daşıyırsa, Palata Böyük Palatanın lehinə öz yurisdiksiyasından imtina edə bilər.

### 16 Hakim iş üzrə məhkəmə iclasında iştirakdan imtina edə bilərmi?

Bəli. Hakimin baxılan işlə əvvəlcədən hər hansı bir şəkildə bağlılığı varsa, o, iş üzrə keçirilən məhkəmə iclasında iştirakdan imtina etməlidir. Bu, işdən imtina adlanır. Məhkəmə prosesinin davam etdiyi müddətdə onu başqa hakim və əgər işdən imtina edən hakim milli hakimdirsə, *ad hoc* hakim əvəz edir.

## 17 Ad hoc hakim nə deməkdir?

Milli hakimin məhkəmə iclasında iştirakı mümkün olmadıqda, iştirakdan imtina etdikdə və ya azad edildikdə iş üzrə tərəf olan dövlət tərəfindən *ad hoc* hakim təyin olunur.

## 18 Məhkəmənin yurisdiksiyası nədir?

Məhkəmə öz təşəbbüsü ilə iş qaldıra bilməz. Məhkəmənin yurisdiksiyasına Avropa İnsan Hüquqları Konvensiyasının pozulmasına dair iddiaların baxılması və bununla əlaqədar fərdi və ya dövlətlərarası şikayətlərin qəbulu daxildir.

# Məhkəmədə İşlərə baxılması

## 19 Məhkəməyə kimlər müraciət edə bilər?

Konvensiya şikayətləri iki növə ayırır: hüquqlarının pozulduğunu iddia edən istənilən şəxs, fərdlər qrupu, şirkət və ya QHT tərəfindən irəli sürülən fərdi şikayətlər və bir dövlətin başqa dövlətə qarşı qaldırdığı dövlətlərarası şikayətlər.

Məhkəmə yarandığı gündən etibarən qəbul edilən şikayətlərin demək olar ki, hamısı Konvensiyanın bir və ya bir neçə müddəasının pozulduğunu iddia edən və Məhkəməyə birbaşa müraciət edən fərdi şəxslər tərəfindən verilmişdir.

## 20 Kimlərə qarşı şikayət etmək olar?

Şikayətlər yalnız Konvensiyanı ratifikasiya etmiş bir və ya bir neçə dövlətə qarşı qaldırıla bilər. Konvensiyanı imzalamamış üçüncü dövlət və ya fərdi şəxslər əleyhinə olan bütün şikayətlər qəbuledilməz hesab ediləcəkdir.

## 21 Məhkəməyə necə şikayət etmək olar?

Fərdi şəxslər Məhkəməyə birbaşa şikayət edə bilərlər və icraatın ilkin mərhələlərində onların hüquqşünas tərəfindən təmsil olunmaları vacib deyildir. Məhkəməyə müraciət etmək üçün müvafiq sənədlərlə birlikdə lazımi şəkildə doldurulmuş ərizə formasını göndərmək kifayətdir. Nəzərə almaq lazımdır ki, şikayət ərizəsinin Məhkəmə tərəfindən qeydiyyata alınması onun qəbul olunacağı və ya mahiyyətinin əsaslandırılmış olması demək deyildir.

Üzv Dövlətin çətinliklə gedilə bilən regionunda yaşamasından və ya maddi imkanlarının kifayət qədər olmamasından asılı olmayaraq istənilən şəxsin Məhkəməyə şikayət ərizəsi verə bilməsi üçün Konvensiya sistemi "sadə" müraciət üsulu nəzərdə tutmuşdur. Bu baxımdan, şikayətlərin Məhkəmə icraatı pulsuzdur.

## 22 Fərdi və dövlətlərarası şikayət ərizələri arasındakı fərq nədən ibarətdir?

Məhkəmənin icraatında olan şikayət ərizələrinin çoxu fiziki şəxslər tərəfindən göndərilən ərizələrdir və onlar fərdi xarakter daşıyır. Bir Dövlət Konvensiya İştirakçısı olan başqa Dövlətə qarşı şikayət ərizəsi verə bilər. Buna dövlətlərarası şikayət ərizəsi deyilir.





## 23 Məhkəmə icraatı zamanı hüquqşünasla təmsil olunmaq zəruridirmi?

Icraatın ilkin mərhələlərində hüquqşünasla təmsil olunmanız vacib deyildir. Istənilən şəxs Məhkəməyə birbaşa müraciət edə bilər. Cavabdeh Hökumətə öz rəylərini təqdim etmək üçün ərizəniz haqqında bildiriş verildikdən sonra isə hüquqşünasın yardımı vacibdir. İcraatın bu mərhələsindən etibarən, lazım gələrsə, ərizəçiyə hüquqi yardım göstərilə bilər.

## 24 Məhkəmədə ərizəçini kim təmsil edə bilər?

Yazılı və ya şifahi surətdə Məhkəməyə müraciət etmək səlahiyyəti olan vəkillərin siyahısı tərtib olunmamışdır. Konvensiyanın İştirakçı Dövlətlərindən birində hüquqi praktika ilə məşğul olmaq səlahiyyəti olan və ya bu işə baxan Palatanın Sədri tərəfindən səlahiyyət verilən istənilən şəxs ərizəçini təmsil edə bilər.

## 25 Şikayətlərin Məhkəmədə baxılması mərhələləri hansılardır?

Məhkəməyə təqdim edilmiş işlərin baxılması iki mərhələdə həyata keçirilir: qəbuledilmə mərhələsi və işin mahiyyətinin öyrənilməsi mərhələsi (başqa sözlə, şikayətlərə baxılması). Şikayətə baxılması da bir neçə mərhələdən ibarətdir.

Tək hakimli tərkib şikayətin qəbuledilməz olduğunun əvvəlcədən aydın olduğu hallarda ərizəni qəbuledilməz elan edir. Bu qərarlara qarşı etiraz qəbul edilmir.

İş Məhkəmənin artıq formalaşmış presedent hüququnun predmeti olduqda Komitə yekun qərar və ya qətnamə çıxarır.

Palata cavabdeh Dövlətə şikayət üzrə öz rəylərini təqdim etmək üçün bildiriş göndərir. Hər iki tərəf öz yazılı rəylərini Palataya təqdim edir. Məhkəmə yalnız bundan sonra işin açıq dinləməyə uyğun olub-olmadığına qərar verir, lakin bu baxılan ərizələrin sayına münasibətdə müstəsna hallarda baş verir. Nəticədə, Palata yalnız üç aylıq müddət bitdikdən sonra yekun sayıla biləcək bir qətnamə çıxarır. Bu üç ay ərzində ərizəçi və ya cavabdeh Dövlət, işin yenidən baxılması üçün Böyük Palataya göndərilməsi ilə əlaqədar müraciət edə bilər. İşin göndərilməsi barədə müraciət Böyük Palatanın kollegiyası tərəfindən qəbul edildikdə işə yenidən baxılır və lazım gəldikdə açıq dinləmələr keçirilir. Böyük Palatanın çıxardığı qərar qətidir.

## 26 Qəbuledilənliyin şərtləri hansılardır?

Şikayət ərizələrinin Məhkəmə tərəfindən qəbul edilən elan edilməsi üçün onlar müəyyən tələblərə uyğun olmalıdır, əks halda Məhkəmə bu şikayətlərə baxmadan onları qəbuledilməz elan edəcəkdir. Məhkəməyə yalnız bütün daxili hüquq müdafiə vasitələri tükəndikdən sonra müraciət etmək olar, başqa sözlə, hüquqlarının pozulduğunu iddia edən şəxslər ilk öncə cavabdeh dövlətdə müraciət edə biləcəkləri ən yuxarı instansiya məhkəmələrinədək bütün müvafiq məhkəmə instansiyalarına müraciət etməlidirlər. Bu yolla, iddia olunan pozulma halını milli səviyyədə aradan qaldırması üçün Dövlətə imkan verilir.

Ərizəçinin iddiaları Konvensiyada təsbit edilmiş bir və ya daha çox hüququn pozulması ilə əlaqədar olmalıdır. Məhkəmə Konvensiyaya daxil olmayan istənilən başqa hüququn pozulmasına dair şikayətlərə baxa bilməz. Şikayət ərizələri Məhkəməyə cavabdeh dövlətin adətən ən yuxarı məhkəmə instansiyasının iş üzrə son

məhkəmə qərarı çıxardığı tarixdən etibarən dörd ay ərzində verilə bilər. Ərizəçi şəxsən və bilavasitə Konvensiya pozuntusunun qurbanı olmalıdır və əhəmiyyətli zərərə məruz qalmalıdır. Əlbəttə, unutmaq olmaz ki, sadəcə Konvensiyanın iştirakçı Dövlətlərindən birinə və ya bir neçəsinə qarşı şikayət verilə bilər, başqa hər hansı bir Dövlətə və ya fərdi şəxsə qarşı şikayət verilə bilməz.

### 27 QHT-lər və ya Dövlətlər Məhkəmə proseslərində iştirak edə bilərlərmi?

Bəli, həm QHT-lər, həm də Dövlətlər ərizə ilə müraciət edə bilərlər. Bundan başqa, onlar Məhkəmə Sədrinin icazəsiylə üçüncü tərəf kimi məhkəmə proseslərində iştitak edə bilərlər.

### 28 Üçüncü tərəf kimi iştirak nə deməkdir?

Məhkəmənin Sədri ərizəçidən başqa, istənilən şəxsə və ya Konvensiyanın iş üzrə cavabdeh olmayan digər İştirakçı Dövlətinə məhkəmə proseslərində iştirak etmə icazəsi verə bilər. Bu hal üçüncü tərəfin iştirakı adlanır. Üçüncü tərəf kimi çıxış edən fərdi şəxs və ya Dövlət öz yazılı şərhlərini təqdim edə və iş üzrə açıq dinləmələrdə iştirak edə bilər.

### 29 Məhkəmə ekspert təyin edə və ya şahidləri dindirə bilərmi?

Bəli, istisna hallarda Məhkəmə şikayətin mövzusu olan faktları aydınlaşdırmaq üçün araşdırma məqsədilə müəyyən ölkələrə səfərlər təşkil edə bilər. Məhkəmənin nümayəndələri şahid ifadələrini toplaya və hadisə yerində təhqiqat apara bilərlər.

Məhkəmə bəzi hallarda ekspertlər təyin edə bilər, məsələn, həbsxanada olan ərizəçilərin müayinə olunması üçün Məhkəmə hakim-ekspertlərə müraciət edə bilər.

### 30 Məhkəmə açıq dinləmələr həyata keçirirmi?

Məhkəmənin yazılı prosedur qaydaları var, lakin, bəzən Məhkəmə müəyyən işlərin açıq dinləmələrinin keçirilməsi ilə bağlı qərar qəbul edir.

Dinləmələr Strasburqda İnsan Hüquqları Məhkəməsinin binasında keçirilir. Palatanın və ya Böyük Palatanın Sədri işdən asılı olaraq başqa qərar qəbul etməzsə, dinləmələr açıq keçirilir. Mətbuat və ictimaiyyətin nümayəndələri adətən bu yolla dinləmələrdə iştirak edə bilərlər, bunun üçün qəbul zalında mətbuat nümayəndələri olduqlarını və ya şəxsiyyəti təsdiq edən vəsiqənin göstərilməsi kifayətdir.

Bütün dinləmələr video-lentə alınır və elə həmin gün Məhkəmənin rəsmi interenet səhifəsində yerli vaxtla saat 14:30-dan etibarən yayımlanır.

### 31 İlkin etirazlar nədir ?

İlkin etirazlar cavabdeh Dövlət tərəfindən şikayətin mahiyyəti üzrə baxılmasını əngəlləmək üçün təqdim olunan dəlillərdir.

### 32 Barışıq sazişi yolu ilə həlletmə nədir?

Barışıq sazişi yolu ilə həlletmə şikayət ərizəsi üzrə icraatın dayandırılması üçün tərəflər arasında əldə olunan razılıqdır. Tərəflər mübahisəni bu yolla həll etmək barədə razılığa gələndə, adətən Dövlət ərizəçiyə müəyyən miqdar pul ödəyir. Barışıq sazişi yolu ilə həlletmənin şərtləri ilə tanış olduqdan sonra əgər Məhkəmə insan hüquqlarına hörmətin şikayətə baxışın davam etdirilməsini tələb etmədiyi nəticəsinə gələrsə, Məhkəmə bu iş üzrə icraatı dayandırır.

Məhkəmə hər zaman tərəfləri məsələnin barışıq sazişi yolu ilə həll edilməsi barədə razılığa gəlməyə sövq edir. Razılıq əldə olunmazsa, Məhkəmə şikayətə mahiyyəti üzrə baxır.

### 33 Məhkəmə müvəqqəti tədbirlər tələb edə bilərmi?

Məhkəməyə ərizə ilə müraciət olunduqda, Məhkəmə şikayətlə əlaqədar qərar qəbul edənə qədər cavabdeh Dövlətdən müəyyən tədbirlər görməsini tələb edə bilər. Bir çox hallarda, Məhkəmə cavabdeh Dövlətdən müəyyən hərəkətlərdən çəkinməsini xahiş edə bilər. Adətən bunlar ölüm və yaxud işgəncə təhlükəsi ilə qarşı-qarşıya olduğunu iddia edən şəxsin öz ölkəsinə geri göndərilməməsi istiqamətində görülən tədbirlərdir.

### 34 Məhkəmə müşavirələri ictimaiyyətə açıqdırmı?

Xeyr, Məhkəmənin müşavirələri hər zaman qapalı keçirilir.

### 35 Dövlətlərin Məhkəmə ilə əməkdaşlıqdan imtina etdiyi hallar olurmu?

Dövlətlərin Məhkəmə ilə əməkdaşlıqdan boyun qaçırdıqları və hətta şikayət ərizəsinin baxılması üçün tələb olunan məlumat və sənədləri Məhkəməyə təqdim etməkdən imtina etdikləri hallar olmuşdur.

Bu halda Məhkəmə Konvensiyanın 38-ci maddəsinin (Dövlətlərin Məhkəmə üçün bütün zəruri imkanları yaratmaq öhdəliyi) Dövlət tərəfindən pozulması haqqında qərar çıxara bilər.

### 36 Məhkəməyəqədər müddət adətən nə qədər davam edir?

Məhkəməyəqədər müddətin nə qədər davam etdiyini müəyyənləşdirmək qeyri-mümkündür. Məhəkəmə işə, daxil olduğu gündən etibarən üç il ərzində baxmağa çalışır, lakin bəzi işlərin yoxlanılması daha çox vaxt tələb edə, bəzi işlər isə əksinə, daha tez hazırlana bilər.

Məhkəməyəqədər prosesin müddəti baxılan işin mahiyyətindən, işi icraata götürən məhkəmənin hansı tərkibdə olmasından, tərəflərin Məhkəməni lazımi məlumatlarla təmin etmə istəyindən, dinləmənin aparılması və ya Böyük Palataya müraciət kimi bir çox digər amillərdən asılı olaraq dəyişir.

Bəzi ərizələr, xüsusilə ərizəçi fiziki təhlükə altında olduğunu iddia etdikdə təcili iş kimi qiymətləndirilə və prioritet əsaslarla baxıla bilər.

## Məhkəmənin qərarları və qətnamələri

### 37 Qərar və qətnamə arasındakı fərq nədən ibarətdir?

Qərar adətən tək hakim, Komitə və ya Məhkəmənin Palatası tərəfindən verilir. Qərar yalnız qəbul edilmə məsələsi ilə əlaqədar verilir və onun işin mahiyyətinə aidiyyəti olmur. Bir qayda olaraq, Palata ərizənin qəbul edilmə məsələsinə və mahiyyətinə eyni zamanda baxır, belə olan halda Palata qətnamə çıxarır.

### 38 Qətnamələr cavabdeh Dövlətlər üçün məcburidirmi?

Konvensiyanın pozulması ilə əlaqədar çıxarılmış qətnamə cavabdeh Dövlət üçün məcburidir və Dövlət onu yerinə yetirməlidir. Avropa Şurasının Nazirlər Komitəsi qətnamələrin icrasına nəzarət edir, xüsusilə də ərizəçilərə dəymiş zərərin qarşılığında Məhkəmə tərəfindən müəyyən edilmiş kompensasiyanın ödənilməsini təmin edir.

### 39 Qətnamələrə qarşı şikayət vermək mümkündürmü?

Qəbuledilməzlik qərarları və həmçinin Komitələr və ya Böyük Palata tərəfindən çıxarılan qətnamələr qətidir və onlara qarşı şikayət verilə bilməz. Amma tərəflər, Palata tərəfindən qətnamə çıxarıldıqdan sonrakı üç ay ərzində işin yenidən baxılması üçün Böyük Palataya verilməsi ilə əlaqədar müraciət edə bilərlər. İşin Böyük Palataya verilməsi ilə əlaqədar müraciət hakimlər kollegiyası tərəfindən baxılır və kollegiya bu məsələnin uyğun olub-olmaması barədə qərar qəbul edir.

### 40 Məhkəmənin qətnamələri necə yerinə yetirilir?

Konvensiyanın pozulması barədə qətnamə çıxarıldıqdan sonra Məhkəmə iş qovluğunu Avropa Şurasının Nazirlər Komitəsinə göndərir. Bu qurum cavabdeh Dövlət və qətnamələrin icrası üzrə məsul şöbə ilə birlikdə qətnamənin necə icra olunacağını və gələcəkdə buna bənzər Konvensiya pozuntularının baş verməməsi üçün görüləcək tədbirləri müəyyən edir. Bu, bəzi ümumi tədbirlərin, xüsusilə də, qanunvericiliyə dəyişikliklərin edilməsi və lazım gəldikdə fərdi xarakterli tədbirlərin görülməsi ilə ifadə olunur.

### 41 Konvensiya pozuntuları haqqında qətnamənin nəticələri hansılardır?

Pozuntu aşkar edildiyi təqdirdə cavabdeh Dövlət bu cür pozuntuların gələcəkdə yenidən baş verməməsi üçün tədbirlər görməlidir, əks təqdirdə Məhkəmə onlara qarşı yeni qətnamələr çıxara bilər. Bu cür hallarda cavabdeh Dövlət milli qanunvericiliyini Konvensiyanın müddəalarına uyğunlaşdırmaq üçün düzəlişlər etməli olur.

### 42 Ədalətli kompensasiya nədir ?

Dövlətin əleyhinə qərar çıxardıqda və ərizəçinin zərərə məruz qaldığını müəyyən etdikdə, Məhkəmə ədalətli kompensasiya təyin edir, başqa sözlə, dəymiş zərəri kompensasiya etmək üçün ərizəçiyə müəyyən miqdar pul ödənilməsinə qərar verir. Nazirlər Komitəsi Məhkəmə tərəfindən təyin olunan məbləğin ərizəçiyə ödənilməsini təmin edir.

### 43 Pilot iş nədir?

Son bir neçə ildir ki, Məhkəmə “sistematik problemlər” kimi də tanınan, milli qanunvericiliklə Konvensiya arasındakı uyğunsuzluq nəticəsində meydana çıxan analoji problemlərlə bağlı ərizələrin kütləvi axını ilə əlaqədar yeni qayda işləyib hazırlamışdır.

Bu yeni qaydaya görə Məhkəmə bir və ya bir neçə analoji şikayətə baxır, oxşar digər şikayətlərin baxılmasını isə təxirə salır (başqa sözlə, sonraya saxlayır). Pilot iş üzrə qətnamə çıxaran zaman Məhkəmə cavabdeh





Dövləti milli qanunvericiliyini Konvensiyanın müddəalarına uyğunlaşdırmağa dəvət edir və görüləcək ümumi tədbirləri göstərir. Bundan sonra Məhkəmə digər analoji şikayətlərə baxır.

### 44 Hakimin xüsusi rəyi nədir?

Məhkəmə prosesində iştirak edən hakimlər baxılan şikayət barədə öz xüsusi rəylərini bildirə bilərlər və onların rəyi çıxarılan qətnaməyə əlavə edilir. Bu rəydə hakim niyə hakimlərin əksəriyyəti ilə həmrəy olduğunu (yekdil rəy) və ya əksinə əksəriyyətlə niyə razılaşmadığını (fərqli rəy) izah edir.

## Məhkəmənin Fəaliyyəti

### 45 Məhkəmənin icraatında olan işlərin sayı nə qədərdir?

Məhkəmə öz uğurunun qurbanı olmuşdur: hər il Məhkəməyə 50 000 yeni şikayət ərizəsi daxil olur. Məhkəmənin müəyyən qətnamələrinin müntəzəm şəkildə yaratdığı əks-səda və Konvensiyanın İştirakçı Dövlətlərinin vətəndaşları arasında artan nüfuzu hər il Məhkəməyə göndərilən müraciətlərin sayına əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

### 46 Daha çox hansı hüquqların pozulması ilə əlaqədar şikayətlər daxil olur?

Yarandığı gündən bu günə qədər Məhkəməyə daxil olan şikayətlərin təxminən yarısı, ədalətli məhkəmə araşdırmaları və araşdırmaların müddəti ilə bağlı Konvensiyanın 6-cı Maddəsinin pozulması ilə əlaqədardır. Belə ki, Məhkəmə tərəfindən müəyyən edilən pozuntuların 58%-i ya 6-cı Maddə (ədalətli mühakimə olunmaq hüququ), ya da 1№li Protokolun 1-ci Maddəsi (mülkiyyətin müdafiəsi) ilə əlaqədardır. Nəhayət, şikayətlərin təxminən 11%-də Məhkəmə Konvensiyanın 2-ci və 3-cü Maddələrinin (yaşamaq hüququ və işgəncələrin və qeyri-insani və ya alçaldıcı rəftarın qadağan edilməsi) ciddi şəkildə pozulması qənaətinə gəlmişdir.

### 47 Müvəqqəti tədbirlər həqiqətən səmərəli nəticə verirmi?

İştirakçı Dövlətlər əsas etibarilə müvəqqəti tədbirlərin tətbiq edilməsi ilə əlaqədar Məhkəmənin göstərişlərinə riayət edirlər. Amma bəzən Dövlətlərin bu tələbləri yerinə yetirmədiyi hallar da baş verir. Bu Dövlətlər 34-cü Maddə (fərdi şikayətlərin verilməsi hüququ) ilə üzərlərinə düşən öhdəlikləri yerinə yetirmədiklərinə görə Məhkəmə onlar barəsində qətnamə çıxara bilər.

### 48 Məhkəmə ictimai problemlərlə məşğul olurmu?

Əlbəttə, Məhkəmə bu gün Konvensiyanın imzalandığı 1950-ci il tarixində görmək mümkün olmayan məsələləri gözdən keçirir. 50 ildən çox müddət ərzində Məhkəmə cəmiyyətə aid olan bir çox məsələlərlə əlaqədar qətnamələr çıxarmışdır: abortla əlaqləli məsələlər, intihara yardım, şəxsi axtarışın aparılması, məişətdaxili köləlik, uşağın doğulması zamanı ana anonimliyini saxlamaq istədiyi halda uşağın öz mənşəyini müəyyən etmək hüququ, məktəblərdə və universitetlərdə İslami hicabın taxılması, jurnalistlərin məlumat mənbələrinin qorunması, qaraçılara qarşı ayrı-seçkilik və ətraf mühitlə bağlı problemlər bu qəbildəndir.

## Məhkəmənin Gələcəyi

### 49 14 saylı Protokol nədir?

Məqsədi şikayət ərizələrinin seçilmə və baxılma mexanizmini təkmilləşdirmək yolu ilə Məhkəmənin uzunmüddətli səmərəli fəaliyyətini təmin etmək olan 14 saylı Protokol ən sadə şikayətlərlə işləmək üçün yeni məhkəmə tərkiblərinin yaradılmasını, yeni qəbuledilmə meyarının (“əhəmiyyətli zərərin” mövcud olması) tətbiq edilməsini və hakimlərin fəaliyyət müdətinin yenidən seçilməmək şərtilə doqquz ilə qədər uzadılmasını nəzərdə tutur. Bu Protokol 2010-cu ilin 1 iyun tarixindən etibarən qüvvəyə minmişdir.

### 50 Yeni islahat planları nələrdir?

14 saylı Protokoldan asılı olmayaraq, Konvensiya tərəfindən yaradılan sistem üzrə əlavə islahatların aparılmasının zəruriliyi nəzərə alınmış və 2006-cı ilin noyabrında nüfuzlu hüquqşünaslardan ibarət Müdriklər Qrupu Nazirlər Komitəsinə bu barədə hesabat təqdim etmişdir. Qrup yeni bir hüquqi seçim mexanizminin yaradılmasını və Məhkəmə fəaliyyətinin müəyyən təşkilati elementlərinə aid olan və Konvensiya üçün tələb olunan beynəlxalq sazişlərdən fərqli olaraq daha asan dəyişdirilə bilən Nizamnamənin işlənib hazırlanmasını tövsiyyə etmişdir.

Avropa Şurasının İnsan Hüquqları üzrə Rəhbər Komitəsi müxtəlif təklifləri nəzərdən keçirməkdə davam edir.

EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

www.echr.coe.int